**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**İNSAN HÜQUQLARI ÜZRƏ ELMİ-TƏDQİQAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**YAQUB ARİF OĞLU YAQUBOV**

# ERMƏNİSTANDA MÜASİR SİYASİ CƏRƏYANLAR VƏ KONSEPSİYALAR

**İxtisas: 5904.01 - Siyasi institutlar və sistemlər**

Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi
dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2014**

**Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə, Sosiologiya və Huquq İnstitutunun "Politologiya və siyasi sosiologiya" şöbəsində yerinə yetirilmişdir.**

**Elmi rəhbər:** **Vaqif İdris oğlu Abdullayev**
siyasi elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Gülzar İsaxan qızı İbrahimova**
siyasi elmlər doktoru

**İradə Malik qızı Məmmədova**
tarix üzrə fəlsəfə doktoru

**Aparıcı təşkilat:** **Bakı Dövlət Universitetinin "Diplomatiya və İnteqrasiya" kafedrası**

Dissertasiyanın müdafiəsi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasia Komissiyasının 17 mart 2014-ci il tarixli 68 saylı əmri ilə 5904.01-"Siyasi institutlar və sistemlər" ixtisası üzrə siyasi elmlər üzrə fəlsəfə doktoru alimlik dərəcəsinin verilməsi üçün AMEA İnsan Hüquqları üzrə Elmi Tədqiqat İnstitutunun nəzdində yaradılmış FD.01.242 Müvəqqəti Dissertasiya Şurasının "05" dekabr 2014-cü il tarixli iclasında saat "___" da keçiriləcək.

**Ünvan:** AZ 1148, Bakı şəhəri, H. Cavid 31

Dissertasiya işi ilə AMEA İnsan Hüquqları üzrə Elmi Tədqiqat İnstitutunun Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" noyabr 2014-cü il tarixində göndərilmişdir.

**FD.01.242 saylı Müvəqqəti Dissertasiya**
**Şurasının elmi katibi,**
**siyasi elmlər üzrə fəlsəfə doktoru** **R.Ə.Hüseynov**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı.** Bu və ya digər ölkələrin daxili və xarici siyasətinin, siyasi sisteminin, eləcə də müasir geopolitik tendensiyaların xarakteristikasını dəyərləndirmək üçün istinad edilən strateji məfhumlardan biri də müxtəlif xarakterli siyasi cərəyan və konsepsiyalardır. Siyasi cərəyan və konsepsiyalar, əsas etibarilə, siyasi subyektlərin fəaliyyət mexanizminin təməlini təşkil edir və daha çox özündə praqmatik maraqlarla rasional ideoloji prinsipləri ehtiva edir. Öz növbəsində müasir çağırışlara, siyasi sistemin və dünya siyasətinin qanunauyğunluqlarına cavab verən siyasi cərəyan və konsepsiyalar pozitiv model kimi çıxış edir və səmərəli nəticələrin əldə olunmasını şərtləndirir. Lakin bəzi siyasi cərəyan və konsepsiyaların inkişafı qlobal problemlərə və gərginliklərə də gətirib çıxarır. Bunlara misal kimi faşizmi və irqçiliyi qeyd etmək olar. Onların yenidən meydana gəlməsi və müxtəlif formalarda ("neo" kontekstdə) təzahür etməsi bəşəriyyəti bu və ya digər səviyyədə təhdid edən hallardan biri kimi çıxış edir. Məhz bütün bunları nəzərə alaraq ayrı-ayrı ölkələrdə ölkədə siyasi proseslərin dinamikası və xarakteristikasının, eləcə də siyasi qanunauyğunluqların öyrənilməsi strateji əhəmiyyət kəsb edir.

Ermənistanda müasir dövrdə mövcud olan siyasi cərəyan və konsepsiyalar da yuxarıda göstərilən kateqoriyaya aiddir. Erməni xalqının tarixi inkişafı tarixin bütün mərhələlərində onun arxasınca getdiyi ideoloji istiqamətlərin neqativ spesifikaya malik olmasını deməyə əsas verir. Bütün bunlar göstərir ki, erməni siyasi cərəyan və konsepsiyalarında zorakılıq, irqçilik və faşizm elementləri həmişə güclü olmuşdur. Həmin meyillərin səbəblərinin müəyyənləşdirilməsi öz aktuallığını saxlamaqdadır.

Ermənilər tarixin müxtəlif dövrlərində kölə psixologiyası ilə yaşayaraq müxtəlif imperialist qüvvələrin "siyasi oyuncağı" kimi çıxış etdiklərindən siyasi iradəyə və hakimiyyətə azad şəkildə malik olmamışlar. Dolayısıyla, erməni milli kimliyinin axtarışında olduğu birinci məsələ vətən axtarışı olmuşdur. Bu isə onların digər millət və dövlətlərin tarixi ərazilərində özlərinə vətən yaratmaq cəhdllərini aktuallaşdırmış, bu kontekstdə çoxsaylı neqativ səylər – ekspansionalist aktlar müşahidə edilmişdir. Beləliklə, ekspansionalist siyasətin ideoloji əsasını təşkil edən "Böyük Ermənistan" ideyaları ortaya çıxmışdır. Qeyd etmək lazımdır ki, həmin ideyanın müasir Ermənistan siyasi mühitində mövcud vəziyyəti elmi cəhətdən ciddi maraq doğurur.

Şübhəsiz, Ermənistanın timsalında siyasi cərəyan və konsepsiyaların formalaşmasına analoji xarici faktorlar da ciddi təsir etmişdir. Daha da dəqiq-

ləşdirsək, bu kontekstdə Ermənistanın təsirə məruz qaldığı ölkələr sırasında Rusiya, İngiltərə, Fransa və ABŞ kimi dövlətlər xüsusi yer tuturlar.

Digər bir məqam bu siyasi cərəyan və konsepsiyalar sonrakı ekspansionalist, təcavüzkar və aqressiv siyasətin ideoloji əsaslarını təşkil etməsidir. Bu baxımdan, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin və ətraf ərazilərinin işğalının təməlində məhz erməni siyasi cərəyanlarının konseptual yanaşmaları dayanır və onların əsasında Azərbaycan, Türkiyə və Gürcüstana qarşı yönəlmiş ərazi iddiaları faktoru durur. Məlumdur ki, Dağlıq Qarabağ ətrafında cərəyan etməkdə olan məlum hadisələrdən sonra Ermənistan SSR-in ərazisində azərbaycanlılara qarşı kütləvi etnik təmizləmə prosesi misilsiz bir qəddarlıq və vəhşiliklə həyata keçirilməyə başlandı. 250 mindən artıq soydaşımız mərhələ-mərhələ öz yurdlarından qovuldu və didərgin salındı[1]. Odur ki, 1988-ci ildən başlanan və Azərbaycan torpaqlarının müvəqqəti işğalı ilə nəticələnən prosesin məhz siyasi elmin tələbləri nöqteyi-nəzərindən tədqiqi olduqca aktualdır.

Cənubi Qafqaz regionunda yerləşən Ermənistan Respublikası müasir beynəlxalq münasibətlər sisteminin aktoru, beynəlxalq hüququn isə tamhüquqlu subyektidir. Müstəqil xarici siyasət kursuna malik olmasa da, bu ölkənin daxili və xarici siyasətinin qarşılıqlı təsir və nisbətdə öyrənilməsi, bu kontekstdə siyasi sistemin qanunauyğunluqlarının aşkarlanması elmi-analitik tədqiqat nöqteyi-nəzərindən müstəsna əhəmiyyət kəsb edir. Xüsusilə də, bu, Ermənistanın timsalında siyasi cərəyan və konsepsiyaların müasir aspektləri və təzahür formalarının tədqiqi baxımından önəmlidir.

Nəticə etibarilə, Ermənistanın siyasi sisteminin qanunauyğunluqlarının, daxili və xarici siyasət kursuun əsaslarının siyasi cərəyan və konsepsiyalar fonunda öyrənilməsi Azərbaycan üçün də olduqca vacibdir. Çünki Azərbaycanla həmsərhəd olan Ermənistan ərazimizin 20 faizini işğal edib, ermənilər xalqımıza qarşı çoxsaylı soyqırımı aktı törədib və bu gün də ərazi iddialarını davam etdirirlər.

Bütün bunlara baxmayaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin vurğuladığı kimi, Ermənistanda hakimiyyəti zəbt etmiş kriminal faşist rejim o ölkəni uçuruma aparır[2]. Mürəkkəb siyasi kataklizmlərlə qarşı-qarşıya olan Ermənistan iqtisadi və demoqrafik tənəzzül mərhələsindədir, ölkədə sosial inqilab çağırışları aktualdır. Bir sözlə, Ermənistan reallıq-

---

[1] Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. Otuzbeşinci kitab.iyun 2001-avqust 2001,Baki: Azərnəşr, 2011, s. 182, 239 s.

[2] Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 19 mart 2014-cü ildə Bakıda novruz şənliyində çıxışı. // "Xalq qazeti" 20 mart 2014-cü il, № 59, s.1-2

ları kontekstində mövcud problemlərlə Ermənistanın çökməsi gözlənilləndir. Odur ki, bu prosesin tez başa çatması üçün Azərbaycan siyasi elmində mövcud məsələlər daim diqqət mərkəzində saxlanılmalıdır.

**Mövzunun öyrənilmə səviyyəsi.** Dissertasiya işinin yazılması zamanı Ermənistanda müasir siyasi cərəyanlar və konsepsiyaların müxtəlif aspektlərinin tədqiqinə həsr olunmuş ədəbiyyatlardan istifadə edilmişdir. Bununla yanaşı, elmi ədəbiyyatda bu problemin ayrı-ayrı məqamlarının təhlilinə baxmayaraq, bu problemin sistemli şəkildə hərtərəfli araşdırılması ayrıca aparılan müstəqil tədqiqatın predmeti olmamışdır və bu sahədə müəyyən boşluqlar var. Hazırki elmi araşdırmanın əsas məqsədi bu boşluqları müəyyən dərəcədə aradan qaldırmaqdan və Ermənistanda müasir siyasi cərəyanlar və konsepsiyaların mahiyyətini və məzmununu sistemli şəkildə tədqiq etmək və baş vermiş və baş verə biləcək pozitiv və neqativ nəticələri göstərməkdən ibarətdir.

Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti və ölkəmizin ərazisinin 20 faizinin işğalının regional təhlükəsizlik və əməkdaşlıq nöqteyi-nəzərindən neqativ geosiyasi nəticələr doğurmuşdur. Bu problem müxtəlif araşdırmalar kontekstində tarixi və politoloji mənbələrdə özünə geniş yer tapmış, yerli və beynəlxalq mətbuatda işıqlandırılmışdır. Tədqiq etdiyimiz problem indiyədək ayrıca tədqiqat obyekti olmasa da, Azərbaycan, Rusiya və Qərb tədqiqatçıları öz əsərlərində araşdırılan problemin bəzi məqamlarına toxunmuşlar. Ona görə də dissertasiyanın yazılması prosesində həmin elmi işlərdən istifadə edilmiş və yaxud da müəyyən məsələlərə aydınlıq gətirmək üçün onlara müraciət olunmuşdur.

Azərbaycan elmi ədəbiyyatında mövzu ilə əlaqəli bəzi əsərlər xüsusi konseptual əhəmiyyət kəsb edir və dissertasiyanın yazılması zamanı istifadə edilmişdir. Belə ki, akademik Ramiz Mehdiyevin əsərlərində erməni siyasi fikrinin ana tezisi olan ermənilərin Qafqazda aborigen olmaları ilə bağlı müddəalar alt-üst edilərək, indiki Ermənistan torpaqlarının tarixi Azərbaycan torpaqları olduğu, ermənilərin burada məskunlaşdırılmasının isə regionda Rusiyanın siyasəti ilə bağlı olduğu elmi dəlillərlə əsaslandırılır[3].

Beynəlxalq münasibətlər sahəsində tədqiqat işləri aparan alimlərdən t.e.d., professor Əli Həsənovun əsərlərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ümumavropa təhlükəsizliyi fonunda təhlil edilir. Burada müəllif xüsusi olaraq vurğulayır ki, Ermənistan Dağlıq Qarabağ və işğal

---

[3] Mehdiyev R.Ə. Azərbaycanlılara qarşı soyqırım gerçəkləri. Bakı, 2000,s.9

edilmiş ətraf rayonlardan çıxmazsa, Azərbaycan onunla bağlı hansı isə bir layihənin həyata keçirilməsində iştirak etməyəcəkdir[4].

T.e.d. Anar İsgəndərovun tədqiqatları problemin araşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. "Azərbaycan həqiqətləri 1917-1920", "1918-1920-ci illərdə türk-müsəlman soyqırımları", "Ermənilərin Azərbaycan torpaqlarında məskunlaşması tarixi"[5] və digər əsərlərində müəllif ermənilərin Cənubi Qafqazda məskunlaşması, onların Osmanlı imperiyasının tərkibində fəaliyyəti, "Daşnaqsutyun" partiyasının məqsədi "Böyük Ermənistan" yaratmaq planını reallaşdırılmaq yolunda addımların atılması və soyqırım siyasəti, eləcə də qədim Azərbaycan şəhəri olan İrəvanın etnik-siyasi tarixi ermənilərin özgə torpaqlarına yiyələnmək siyasətinin anatomiyasını əks etdirən ən qabarıq faktlardan biri olduğu mövcud arxiv sənədləri və qərb müəlliflərinin əsərləri əsasında tədqiq edilmişdir V. Arzumanlı və M. Nazim tərəfindən yazılmış azərbaycanlıların tarixi torpaqlarından deportasiyasına həsr edilmiş "Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınçılıq" [6] azərbaycanlıların deportasiyasının əslində erməni siyasi düşüncə fəaliyyətinin hədəflərindən və əldə etdiyi nəticələrdən biri olduğu əsərində göstərilir. Müəlliflərin fikrincə, tarixi həqiqətlərin təhrif edilməsində və erməni siyasi fikrinin maraqlarına uyğun təqdim edilməsində erməni mətbuatı xüsusi rolu oynamışdır.

Azərbaycan müəllifləri arasında Ermənistan və ermənilərlə bağlı bir sıra həqiqətlərin ortaya çıxarılmasında s.e.d., prof.R. Mustafayevin əsərlərində araşdırılan problemin müxtəlif aspektləri öz əksini tapmışdır. Müəllif erməni məsələsini biososial eksperement kimi xarakterizə edir[7].

Dissertasiya işində istifadə edilmiş mənbələr sırasında problemin tarixi köklərinin araşdırılması baxımından akademik Y. Mahmudovun əsərlərini xüsusilə vurğulamaq olar. Bu əsərlərdə ermənilərin yalançı "soyqırım" iddialarını təkzibolunmaz faktlarla ifşa edilmiş, azərbaycanlıların ermənilər tərəfindən soyqırıma məruz qalması, tarixi torpaqlarından köçürülməsi və zaman-zaman həmin torpaqlarda ermənilərin yerləşdirilməsi işıqlandırmışdır. Müəllifin t.e.d.,

---

[4]Həsənov Ə. Azərbaycan və ATƏT Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda. Bakı, 1997,s.7

[5]İsgəndərov A. Azərbaycan həqiqətləri 1917-1920. Bakı:Elm və Təhsil, 2012, s.223; 1918-1920-ci illərdə türk-müsəlman soydırımları // Azərbaycan qəz., 2 aprel, 2005, №73. s. 5 ; Ermənilərin Azərbaycan torpaqlarında məskunlaşması tarixi // Azərbaycan qəz., 15 fevral, 2008, N 35. s. 6 .

[6]Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı: Qartal, 1998, s.8

[7]Мустафаев Р. Страсти по виртуати. Баку: Элм, 2006,с.8

prof. K.Şükürovla birgə yazdığı "Qarabağ: real tarix, faktlar, sənədlər"[8] kitabı bir neçə xarici dildə nəşr edilmişdir. Burada gətirilən arqument isə olduqca maraqlı, sadə və tutarlıdır: Qarabağ sözü Azərbaycan dilində mövcud olan iki sözün birləşməsindən ibarətdir Bu arqument, həmçinin erməni siyasi cərəyanlarının ana tezislərindən biri olan Dağlıq Qarabağın ermənilərə məxsus olması fikrinin absurdluğunu göstərir.

Erməni siyasi təşkilatlanmasının ilkin mərhələlərinin, o cümlədən siyasi məqsədə nail olma və terror arasında əlaqələrin araşdırılmasında t.e.d. S. Hacıyevin "Türkiyə-Rusiya münasibətləri və erməni terroru" əsərinə tədqiqatq cəlb edilmişdir. A. Məmmədlinin "Ermənilərin gerçək tarixi" və "Gəlmələr" adlı kitabları, eləcədə Ermənistan və erməni siyasi mühiti haqqında H.Cabbarlının da mövzu ilə bağlı çap edilmiş bir sıra əsərləri tədqiqata cəlb edilmişdir[9]. E. Əhmədovun "Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011)" kitabında da araşdırdığımız problemin müəyyən məqamlarına dair dəyərli məlumatlar verilmişdir.

Dissertasiya işində, həmçinin bir sıra azərbaycanlı araşdırmaçıların KİV-lərdə müxtəlif illərdə dərc olunmuş məqalələrindən istifadə edilmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi istər Rusiya, istərsə də Qərb ölkələrinin tədqiqatçıları tərəfindən müxtəlif mövqelərdən fərqli aspektlərdə tədqiq edilmişdir.

Rusiyada bu problemə dair əsərlərin böyük əksəriyyəti ziddiyyətli, çox vaxt isə ermənipərəst mövqedən təhlil edilmişdir. Azərbaycanla bağlı məqalələrin əksəriyyətində Qarabağın tarixi reallıqdan uzaq və subyektiv mülahizələr əsasında təqdim edilir. Bəzi rus müəllifləri məsələlərin araşdırılması zamanı erməni təbliğatından təsirləndikləri aydın görünür.

Odur ki, Rusiyanın elmi jurnallarında mütəmadi olaraq nəşr edilən bu tipli məqalələrin əksəriyyəti daim tariximizi saxtalaşdıran ermənilərin mövqeyini əks etdirdiyindən onları geniş təhlil etməyi zəruri saymırıq. Bu baxımdan, Y.Barseqov, V.Kazimirov və başqalarının əsərlərində də subyektiv fikirlər üstünlük təşkil edir.

Azərbaycanın siyasi, milli, eləcədə də ortaq maraqları Türkiyə müəlliflərinin tədqiqatlarında öz əksini tapmışdır. Tədqiqat zamanı B. Abdul-

[8]Mahmudov Y.M., Şükürov K. K. Qarabağ. Real tarix, faktlar, sənədlər. Bakı, 2005.
[9]Hatem C. Bağımsızlık Sonrası Ermenistan'ın Enerji Politikası // Avrasya Dosyası (Enerji Özel), Bahar 2003, Cilt: 9, Sayı: 1, s. 250-252

kadirin[10], K. Ağacanın[11], G. Kamuranın[12] və başqalarının əsərlərindən bir sıra məqamlara aydınlıq gətirmək üçün onlara müraciət olunmuşdur.

Ermənilərin "Böyük Ermənistan" xülyasını açıqlanması məqsədilə dissertasiyanın işlənməsi zamanı gürcü müəllifi İ. Çavçavadzenin ötən əsrin əvvəlində yazmış olduğu "Армянские ученые и вопющие камни" əsəri də tədqiqatda cəlb edilmişdir.[13]

Tədqiq etdiyimiz problem Qərb ölkələrinin alimləri tərəfindən də araşdırılmışdır. Bu mənada, Tomas Qoltzın 1998-ci ildə Nyu-Yorkda nəşr edilmiş əsəri tədqiq etdiyimiz problemin öyrənilməsi baxımından diqqəti cəlb edir. Kitabda Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazilərinin işğal olunması faktlar və dəlillər əsasında öz obyektiv əksini tapmışdır. Əsər 1988-1991-ci illərdə Sovet rəhbərliyinin baş verən hadisələrə münasibətinin öyrənilməsi nöqteyi-nəzərdən də dəyərlidir (194-195). Bir sıra ingilis dilli mənbələrə də müraciət edilmişdir.

Təqiqatın işlənməsi zamanı üstünlük verilmiş elmi yanaşmalardan biri də erməni müəllifi və politoloqlarının əsərlərinə birbaşa nüfuz edilməsidir. Burada erməni politoloq və tədqiqatçılarından Gerard J. Libaridianın, A.Ayvazyanın, Q.Qəribcanyanın, V.Qriqoryanın, R. Safrastyanın, habelə ümumi sayı 30-a yaxın digər erməni müəlliflərinin elmi və publisist əsərlərindən istifadə edilmiş, onlara tənqidi yanaşılmış, bu araşdırmalardakı qərəzli münasibətlər ortaya çıxarılmışdır. Erməni ədəbiyyatlarından istifadə zamanı onların ifadə etdikləri yanlış və qərəzli müddəaların əsassızlığını ortaya çıxarmaq əsas yanaşma metodu olaraq qəbul edilmişdir.

Göründüyü kimi bu məsələnin ayrı-ayrı məqamlarının və aspektlərinin təhlilinə baxmayaraq, Ermənistanda müasir siyasi cərəyanlar və konsepsiyalar və onların inkişaf tendensiyalarının təhlili məsələlərinin sistemli şəkildə, hərtərəfli araşdırılması ayrıca aparılan müstəqil tədqiqatın, eləcədə siyasi elm sahəsi mütəxəssislərinin təhlil predmeti olmamış və bu sahədə müəyyən boşluqlar var.

Dissertasiyada bütövlükdə ədəbiyyat analizi zamanı qeyd olunan işlərin sosial-normativ və hüquqi-siyasi aspektlərinə baxış seçilmiş problemin

---

[10] Abdulkadir B. Etnik Terör ve Etnik Terörle Mücadele Sorunu // Fırat Üniversitesi Sosyal Bilimler Dergisi, Cilt 10, Sayı 1, 2000, s. 11-27.

[11] Arsiv Belgeleriyle Ermeni Faaliyetleri, 1914-1918 // C.I. Genelkurmay ATASE ve Genelkurmay Denetleme Baskanlıgı Yayınları, Ankara Genelkurmay Basımevi, 2005, s.71-72.

[12] Kamuran G. Ermeni Dosyası, Ankara: Türk tarih Kurumu Basımevi, 1983, 309 s.

[13] Чавчавадзе И. Армянские ученые и вопющие камни. Тифлис: 1902. http://www.amsi.ge/istoria/somx/kamni.html

işlənməsinin zəruri olduğunu göstərir. Bu isə mövzuya ciddi elmi yanaşma tələb edir və gələcəkdə də kompleks şəkildə tədqiqatına ehtiyac olduğunu göstərir. Eləcə də bəzi problemlərin şərhi üçün Ermənistan Respublikasında siyasi proseslərin ilkin tədqiqat səviyyəsi kifayət deyildir və problemi tədqiqat obyektinə çevirməyimiz məhz bu zərurətdən irəli gəlir.

Elə bu zərurət də mövcud problemin dissertasiya üçün mövzu kimi seçilməsini şərtləndirmiş, tədqiqatın başlıca məqsədini və ən mühüm vəzifələrini müəyyənləşdirmişdir.

**Dissertasiya işinin mənbə bazası.** Tədqiqat mənbə bazasını aşağıdakı formada sıralamaq mümkündür:

1. Azərbaycan Respublikası Prezidentinin Fərmanları, müvafiq hakimiyyət strukturlarına məxsus hüquqi-normativ sənədlər, statistik məlumat kitabları və s.;
2. Azərbaycan Respublikasının müxtəlif arxivlərindən əldə edilmiş məlumatlar, habelə digər müəlliflər tərəfindən ortaya çıxarılmış və ümumi istifadəyə verilmiş materiallar, həmçinin Azərbaycan Respublikasının müxtəlif rəsmi saytlarında yerləşdirilmiş elektron materiallar;
3. Kütləvi informasiya vasitələri, elektron resurslar;
4. Bir sıra erməni mənbələrinin tərcümə edilmiş versiyaları, habelə internetdə yerləşdirilmiş müxtəlif erməni elektron informasiya bazaları;
5. Ermənistanda çıxan müxtəlif KİV-lərin materialları;
6. Rus imperiyasının bir sıra statistik topluları, Osmanlı İmperiyası mənbələrinin dərc edilmiş materialları;
7. Bəzi xarici jurnal və qəzet materialları.

**Dissertasiya işinin metodoloji əsası.** Dissertasiya işi yazılarkən analiz və sintez, ümumiləşdirmə, induksiya və deduksiya, habelə tarixi təsvir metodları ilə yanaşı, müqayisəli və sistemli təhlil metodlarından da geniş istifadə olunmuşdur.

**Tədqiqatın predmeti.** Tədqiqatın predmeti Ermənistan Respublikasında siyasi proseslər və onun bu ölkənin xarici siyasətinə mümkün təsirləridir.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyekti Ermənistanda mövcud olan müasir siyasi cərəyanlar və konsepsiyalardır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi müasir dövrdə Ermənistan Respublikasında mövcud olan siyasi partiya və təşkilatları, eləcə də konsepsiyaları araşdırmaqdır. Bu məqsədin həyata keçirilməsi üçün bir sıra vəzifələrin icrası qarşıya qoyulmuşdur. Bunlar aşağıdakılardır:

- Qondarma "Böyük Ermənistan" ideyasının yaranmasının tarixi şəraitinin, səbəblərinin və onun siyasi aspektlərinin hərfərəfli şəkildə

öyrənilməsi, bu istiqamətdə tarixi həqiqətlərin ortaya çıxarılması və siyasi yanaşmanın optimal üsullarının müəyyən edilməsi;

- Erməni siyasi düşüncəsində ilk partiyaların yaranma səbəblərinin öyrənilməsi, mövcud dövrün siyasi reallıqlarının tədqiq edilməsi və qeyd edilən təşkilatların konsepsiyalarının araşdırılması, təhlil edilməsi;

- Məlumdur ki, 1915-ci il hadisləri yeni dövr erməni ideologiyasının əsas anlayışı kimi çıxış etmişdir. Bu səbəblə soyqırım kimi təqdim edilməyə çalışılan "təhcir"(köçürülmə və yerləşdirmə) qərarının siyasi və hərbi səbəblərinin öyrənilməsi, bu hadisənin necə bir şəkildə ideologiyalaşdırıldığının müəyyən edilməsi;

-Xüsusi olaraq Cənubi Qafqazda erməni siyasi mühitinin formalaşması və xarakterik xüsusiyyətlərinin araşdırılıb üzə çıxarılması. Erməni siyasi fəaliyyətinin Cənubi Qafqaza köçmə səbəblərinin araşdırılması;

- Erməni partiya və təşkilatların siyasi görüşlərində faşizmlə uyğunluq dərəcəsinin müəyyən edilməsi, erməni mətbuatında radikal millətçi fikirlərin özünə yer tapmasının üzə çıxarılması;

- SSRİ-nin dağılması prosesində erməni siyasi düşüncəsinin əsas istiqamətlərinin tədqiq edilməsi və Dağlıq Qarabağ probleminin genezisinin araşdırılması;

- Erməni siyasi partiya və təşkilatlarının müasir siyasi mühitin reallıqları fonunda fəaliyyət dinamikasının öyrənilməsi, bu dinamikaya bu və ya digər şəkildə təsir edən amillərin üzə çıxarılması;

- Ermənistanın xarici siyasətinin formalaşmasında mövcud reallıqlar və siyasi cərəyanların iştirakının kompleksli şəkildə öyrənilməsi;

- Erməni - PKK və Ermənistan-Türkiyə münasibətlərinin, Ermənistan siyasi mühiti və Cavaxetiya probleminin qarşılıqlı əlaqələrinin öyrənilməsi

**Tədqiqatın elmi yeniliyi.** Ermənistanın daxili və xarici siyasətinin xarakteristikası və qanunauyğunluqlarına dair çoxsaylı araşdırma materialları mövcuddur. Buna baxmayaraq, dissertasiyanın yazılması zamanı bir sıra yeniliklər edilmişdir. Bunlar aşağıdakılardır:

-Dissertasiya işi müasir Azərbaycan siyasi elmində Ermənistanın daxili siyasi mühitinin konseptual olaraq öyrənildiyi ilk elmi tədqiqat əsəridir;

- İlk dəfə olaraq Ermənistanla bağlı araşdırmada bu ölkədə mövcud olan siyasi partiya və təşkilatlar, onların ideoloji cərəyan və konsepsiyalara məxsusluğu ayrılıqda öyrənilmşdir;

- Ermənistanda mövcud siyasi cərəyan və konsepsiyaların öyrənilməsində siyasi partiya və təşkilatların müvafiq nizamnamələri və digər sənədlərindən istifadə edilmiş, onların təhlili verilmişdir;

- Ermənistanda siyasi-mədəni dəyərlərin təməllərinin hansı əsaslara söykəndiyi öyrənilmişdir;

- Dissertasiyanın yazılması zamanı ilk dəfə olaraq erməni politoloqları və humanitar elm nümayəndələrinin əsərlərindən, məqalələrindən geniş səviyyədə istifadə olunmuşdur;

- Ermənistan siyasi partiya və təşkilatlarının siyasi-ideoloji istiqamətlər üzrə təsnifatlandırılması araşdırılmışdır;

- Müasir erməni siyasi mühitindəki ziddiyyətlərin səbəbləri haqqında araşdırmalar aparılmışdır.

**Tədqiqatın praktik əhəmiyyəti.** Dissertastasiya işinin praktiki əhəmiyyətidünya siyasəti, geosiyasət və Azərbaycanın milli maraqları kontsektində strateji baxımdan önəm kəsb edən məsələlərin analitik tədqiqat obyektinə çevrilməsidir. Ümumilikdə, tədqiqatın praktiki əhəmiyyətini aşağdakı şəkildə təsnif etmək olar:

- Milli dövlətçilik maraqlarına və milli təhlükəsizlik məsələsinə müvafiq olaraq Ermənistandaki siyasi proseslərin genezisinin öyrənilməsi istiqamətində kompleks məlumat bazasının formalaşdırılması;

- Ermənistanın siyasi sisteminin qanunauyğunluqlarının ölkə reallıqları və dünya siyasətinin dinamikasına müvafiq surətdə öyrənilməsi;

- Ermənistan daxilində cərəyan edə biləcək, eləcə də bu ölkənin dünya siyasətində iştirakçılığı kontekstində siyasi proseslərin proqnozlaşdırılması;

- Bu ölkədə fəaliyyət göstərən siyasi təsisat və subyektlərin ideoloji oriyentasiyasının, bu kontekstdə mövcud tendensiya və trendlərin müəyyənləşdirilməsi;

- Ermənistanın xarici siyasətinin daxili siyasi proseslərdən asılılıq dərəcəsinin öyrənilməsi və siyasi qurumların xarici siyasət konsepsiyalarının təsnifatlandırılması;

-Ermənistan siyasi mühitində partiya və təşkilatların xarici təsirdən təsirlənmə dərəcəsinin müəyyən edilməsi;

- Ermənistanla bağlı sistemli araşdırmalarınkompleks məlumatların əks olunduğu elmi baza rolunda çıxış edilməsi, ali və xüsusi ixtisas təhsil müəssisələrində, diplomatların və təhlükəsizlik orqanları işçilərinin biliklərinin təkmilləşdirilməsində istifadə edilməsi.

**Dissertasiya işinin aprobasiyası.** Dissertasiya işi Azərbaycan Respublikası Milli Elmlər Akademiyası Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun "Politologiya və siyasi sosiologiya" şöbəsində yerinə yetirilmişdir. Dissertasiya işinin məzmunu müəllifin yerli və xarici mətbuatda nəşr etdirdiyi elmi məqalə və konfrans materiallarında öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu:**Tədqiqat işi giriş, üç fəsil, on yarımfəsil, nəticə, iki əlavə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiq olunan mövzunun aktuallığı əsaslandırılır, problemin işlənmə dərəcəsi öyrənilir, tədqiqatın obyekti və predimeti, məqsəd və vəzifələri, mənbəşünaslıq bazası, nəzəri - metodoloji əsasları müəyyənləşdirilir, elmi yeniliyi, nəzəri-praktik əhəmiyyəti və aprobasiyası göstərilir.Dissertasiyanın **"Ermənistanda siyasi fikir istiqamətlərinin formalaşması prosesi"**adlanan birinci fəsli dörd yarımfəsildən ibarətdir. Bu fəslin birinci yarımfəsli **"Erməni siyasi fikri müasir siyasi cərəyan və konsepsiyalar kontekstində"** adlanır. Müasir dövrdə bu və ya digər ölkənin daxili və xarici siyasət kursunun dəyərləndirilməsi zamanı bir sıra strateji xarakterli fundamental amil və kriteriyalar əsas götürülür. Bunlar sırasında siyasi hakimiyyətin və milli dövlətçilik ənənələrinin söykəndiyi siyasi cərəyan və konsepsiyalar xüsusi əhəmiyyət daşıyır. Əsas etibarilə, siyasi cərəyan və konsepsiyalar fəaliyyət mexanizminin ideoloji əsaslarını təşkil edir və orada əks olunan başlıca strateji məsələlər reallıqları dəyərləndirməyə imkan verir. Bu kontekstdə dünya siyasətində ekspansionalist mövqe sərgiləyən, ayrı-ayrı imperialist mərkəzlərin direktivləri əsasında daxili və xarici siyasət kursu formalaşdıran Ermənistanın timsalında spesifik cərəyan və konsepsiyalara nəzər yetirmək fundamental əhəmiyyət daşıyır.

İstənilən bir xalqın və ya ölkənin siyasi fikir tarixini dünya siyasi inkişafından təcrid bir şəkildə təsəvvür etmək mümkün olmadığından, yarımfəsildə dünyada siyasi fikrin formalaşmasına qısa ekskurs edilir, siyasi cərəyanlarvə məktəblər gözdən keçirilir, həmçinin onların erməni siyasi fikrinə təsir formaları araşdırılır.Göstərilir ki, yeni və müasir dövrdə mövcud olmuş bir sıra siyasi cərəyan və konsepsiyalar birbaşa və ya dolayısı ilə erməni siyasi fikrinə də təsir etmişdir. Qeyd edilir ki, Erməni cəmiyyətinin daxili prosesləri ilə bağlı olaraq bəzi erməni siyasi təhqiqatçıları liberalizmə meyl göstərirlər. Lakin erməni müəllifləri Ermənistan və liberalizm arasında ciddi ayrılığın olduğunu etiraf edirlər. Məsələn, erməni araşdırmaçısı A. Beqlaryan yazır ki, Ermənistan və liberal dəyərlər tamamilə biri birilərinə zidd anlayışlardır[14]. Erməni siyasi fikirində mühafizəkarlıq bir qədər ifrat formada ifadə edilir. Mühafizəkar əsasları təbliğ edən bir sıra erməni təhqiqatçıları bəzi məsələlərdə

[14] Бегларян А. Исторический вызов либерализма современной Армении. // Актуальная политика. *Выпуск 1 (6), декабрь'07 - январь'08*

daha da ifrata getməklə ümumi mühafizəkar dəyərlərin müəlliflik hüququnu belə özlərinə şamil etmək istəyirlər. Məsələn, araşdırmaçı A.Ustyan erməni ideologiyasında xristianlığın önəmindən danışmaqla bərabər, xristianlığın dəyərlərinin formalaşmasına ermənilərin birbaşa təsir etdiyi iddiası ilə çıxış edir[15]. Erməni sosialist siyasi fikri də marksizm və sosializmin digər müəlliflərinin fikirləri üzərində formalaşsa da, əslində millətçi bir mahiyyət daşıyır. Ermənilərin ilk siyasi təşkilatları olan "Hnçak" və "Daşnaksütyun" sosial-demokrat partiyası olsa belə tarixi inkişaf prosesində bu partiyaların daha çox millətçi ideyaları müdafiə etdikləri aydın görsənir. Hətta bir qədər sonra sovet dövründə bir sıra erməni müəllifləri, o cümlədən A.Lalayan əslində "Daşnaksütyun" kimi bir partiyanın inqilabçı, sosialist deyil, əksinqilabçı olduğu tezisini müdafiə etmişlər[16].

Bu fəsilin ikinci yarımfəsli **"Qondarma "Böyük Ermənistan" ideyası və onun siyasi aspektləri"** adlanır. Yarımfəsildə bu ideyanın siyasi-ideoloji məsələlər kontekstində analitik tədqiqat obyektinə çevrildiyi və "Böyük Ermənistan" məfhumunun ekspansionalizmə haqq qazandıran və rəvac verən vasitə olduqu diqqətə çatdırılır. Əlbəttə, bu məsələnin xüsusi tədqiqat obyektinə çevrilməsi olduqca zəruridir. Çünki tarixi mənbələrdən də göründüyü kimi, əslində, ermənilərin başlıca məqsədi tarixi Azərbaycan torpaqlarının zəbt edilməsi hesabına "Böyük Ermənistan" xülyasının gerçəkləşdirilməsi olub. Ən müxtəlif zaman kəsiklərində ermənilər tarixi torpaqlarımıza qarşı təcavüz aktları ilə çıxış edib və azərbaycanlıları etnik soyqırımına məruz qoyublar. Əlbəttə ki, bu cür sistemli, davamlı və nizamlı terror, soyqırım aktları məqsədyönlü olub və xarici güclərin bilavasitə dəstəyi əsasında həyata keçirilib.

Göstərilir ki, qondarma "Böyük Ermənistan" ideyası erməni siyasi mühitində ən çox istismar edilən anlayışlardandır. Bir sıra müəlliflər qeyd edirlər ki, tarixi hadisələrin bu və ya digər şəkildə təqdimatı getdikcə siyasi bir ideologiyaya çevrilə bilir. Ermənilər üçün belə bir ideologiya qondarma məhz "Böyük Ermənistan" ideyasıdır. Gürcü müəlliflərindən Q. Marxuliya belə hesab edir ki, bu ideya erməni siyasi fikri tərəfindən daim istismara məruz qalmışdır[17]. Erməni müəllifləri qondarma "Böyük Ermənistan" ideyasını erməniləri vahid şəkildə təşkilatlandıracaq və tarixi yüksəliş əldə edəcək ideya

---

[15] Устян А.Р., Армянский митраизм как идеологическая основа армянского христианства. http://dic.academic.ru/dic.nsf/ruwiki/1851830

[16] Лалаян А. Контрреволюционный «Дашнакцутюн» и империалистическая война 1914-1918 гг. // История Азербайджана по документам и публикациям. Баку, 1990, с.50-63

[17] Мархулиа Г., Нуриева Ш. «Многострадальная Армения»: мифы и реальность. Баку 2011, с.67

hesab edirlər: “Böyük Ermənistan” ümummilli ideologiyanın mahiyyətidir və erməni xalqının “öz tarixi torpaqları”nda yaşam hüququnun bərpası məsələsidir. Göründüyü kimi, məsələ mövcud siyasi reallıqlar aspektindən deyil, reallaşdırılması istənilən siyasi xülyalar aspektindən işıqlandırılır. Erməni dövlətçiliyinin olmaması xristianlığın qəbulundan sonra kilsə institutu vasitəsi ilə kompensasiya edilmişdir. Ermənilər kilsə ətrafında toplaşmış, onların bütün ehtiyacları kilsə tərəfindən ödənilmişdir. Erməni kilsəsinin nəzarətində olan erməni məktəblərində “Böyük Ermənistan” ideyasının fəal təbliği həyata keçirilmişdir. Ermənilərin guya böyük xalq olması, Qafqazda ilk olaraq xristianlığı qəbul etmələrini göstərməyə çalışan saxta əsərlər yazılmışdır. Təəssübkeşliyə əsaslanan tarixi mənbələrdə isə tarixi reallıqlar bir qayda olaraq təhrif edilmişdir.

Birinci fəsilin üçüncü yarımfəsli **“Erməni siyasi fikrində ilk partiya və təşkilatların konsepsiyaları”** adlanır. Bu yarımfəsildə daha çox Ermənistandan ilk partiya və siyasi təşkilatların separatizm və erməni millətçiliyindən başqa bir şey təbliğ etmədiyi təhlil edilir və konkret tarixi faktlar əsasında sübuta yetirilir.

Yarımfəsildə həmçinin belə qənaətə gəlinir ki, erməni siyasi fikrinin formalaşmasında istifadə edilən bir sıra psixoloji məqamlar mövcuddur. Onların başlıca xüsusiyyəti ermənilərin özlərini dünya ictimaiyyətinə daim zülmə məruz qalmış bir xalq imicində göstərmək istəmələridir. Ümumiyyətlə, bəşəri psixologiyada belə bir məqam vardır ki, zülmə məruz qalmış insanlar mərhəmətə və kömək edilməyə layiqdirlər. Ermənilərdə həmişə insan xislətinin bu xüsusiyyətindən siyasi cəhətdən bəhrələnməyə çalışmışlar. Bir ölkədən başqasına köç etmək XIX əsr boyu və XX əsrin birinci yarısında ermənilərin tarixində çox mühüm yer tutur. Ermənilər bunu zülmdən xilas olma kimi təqdim etsələr də, əslində bu xəyanət etməyin nəticəsi və ya daha əlverişli ərazilərdə məskunlaşmaq istəyindən başqa bir şey deyildir. Buna görə bu ideologiyada erməni milli üstünlüyü və bu kimi çirkin xülyalar özünə yer almalı idi. Təsadüfi deyil ki, ermənilərin 1885-ci ildə yaradılan ilk siyasi partiyası “Armenakan”ın əsası qoyularkən xüsusi vurğulanmışdı ki, erməni xalqı onu əhatə edənlərdən səviyyəsinə görə fərqləndiyi üçün inqilabi fəaliyyəti də ayrı aparmalı, prioritet məsələ isə erməni dövlətinin yaranması olmalı idi[18]. 1887-ci ildə Cenevrədə qurulan ikinci erməni partiyası “Hnçaq” da inqilabçı ritorikadan məharətlə istifadə edirdi. Amma bu iniqlabi ritorikanın da arxasında erməni millətçiliyinin maraqları dayanırdı. Erməni millətçiliyinin bir

---

[18] Дарбинян А. Армения в дни национального освобождения. Воспоминания (1890-1940). Париж, 1947, с.125

marağı vardı: dövlətləri, yeni yaranan inqilabi hərəkatları erməni dövlətinin yaranmasına dəstək verməyə təhrik etmək. Növbəti erməni siyasi partiyası "Daşnaksütyun" 1890-cı ildə Tiflisdə yaradılmışdır. Əsas qayəsi Azərbaycanın Dağlıq Qarabağ, Naxçıvan və Türkiyənin Anadolu torpaqlarında "Böyük Ermənistan" dövləti yaratmaqdır. 1892-ci ildə Tiflisdə ilk qurultayını keçirən "Daşnaksütyun" türklərə qarşı sui-qəsdlərin təşkil olunması barədə qərar çıxarmışdır. İlk baxışda partiya iniqlabi ideyalarla çıxış etsə də əslində separatizm və erməni millətçiliyindən başqa bir şey təbliğ etmirdi. Daşnakların başlıca məqsədi erməni dövlətçiliyi təsis etmək, əsas ideyası isə istənilən formada vəhşilk və cinayətlər törətməklə istəklərinə nail olmaqdanibarət idi.

Birinci fəsilin dördüncü yarımfəsli **"1915-ci il hadisələrinin yeni dövr erməni ideologiyasının formalaşmasında rolu və yeri"** adlanır. Yeni dövr erməni ideologiyasında 1915-ci il hadisələri ermənilər tərəfindən dünyaya bir soyqırım kimi təqdim edilməkdədir. Təsadüfi deyil ki, XX əsr boyu özlərinin həyata keçirdikləri qeyri-insani cinayətlərə bəraət qazandırmaq üçün ermənilər intiqam amilini daha çox qabardırdılar. Əslində isə nəyin və necə baş verdiyi maraq doğurur. Çünki ermənilərin mövqeləri çox vaxt reallıqlarla əkslik təşkil etmişdir. Bəzi erməni müəlliflər tərəfindən yazılan kitab və məqalələrdə də erməni soyqırımı məsələsi hüquq kontekstindən işıqlandırılmağa çalışılır, bu cür hərəkətlərin kökündə erməni siyasi partiya və hərəkatlarına hüquqi əsas vermək istəyi dayanır. Əslində isə bu hadisə ermənilərin özlərinin xəyanətləri ilə bağlı idi. Ruslar ilə birgə vuruşan ermənilər 1915-ci ildə Vanın ruslar tərəfindən işğalında xüsusi rol oynamışlar. Onlar əsasən açıq döyüşlərdə deyil, türk kəndlərinə qarşı basqın və cinayətlərdə "uğurlar" əldə etmişdilər. Ermənilərin törətdiyi cinayətlər alman səfirinin öz rəhbərliyinə göndərdiyi hesabatda dəhşətlə xatırlanmışdır. Van hadisələrindən sonra 24 aprel 1915-ci ildə Osmanlı höküməti yerlərdə dövlətə qarşı baş qaldırmış ermənilərin köçürülməsi haqqında qərar göndərdi[19]. Bu gün adları dəyişməklə bərabər eyni maraq dairəsində Türkiyə üzərindəki əməllərini reallaşdırmaq üçün əllərində tutduqları əsassız, süni və məqsədli bir problemdir. Yeni dövr erməni ideologiyası da saxta soyqırımdan özünün formalaşması üçün bir bazis anlayışı kimi istifadə etmiş və etməkdədir.

Dissertasiyanın **ikinci fəsli "Erməni siyasi fəaliyyət mərkəzinin dəyişməsi. Erməni dövlətinin yaradılmasına gedən yol"** adlanır. Burada birinci yarımfəsil **"Cənubi Qafqazda erməni siyasi mühitinin formalaşması**

---

[19] Osmanlı Belgelerinde Ermeniler, (1915-1920), Yay. Haz: Ahmet Altıntas, Mehmet Canatar, Oguz Çakıl, Recep Karacakaya, Ali Kaya, Bülent Kulüp // Basbakanlık Devlet Arşivleri Genel Müdürlügü Osmanlı Arsivi Daire Baskanlıgı Yayınları , Ankara 1995 No: 14, s.7

**və xarakterik xüsusiyyətləri"**adlanır. Yarımfəsildə erməni siyasi düşüncəsi üçün xəyanət anlayışı təhlil edilir. Göstərilir ki, XX əsrin əvvəllərində Azərbaycan ərazisində ermənilərin həyata keçirdiyi və 1905-1906-cı illəri əhatə birinci erməni vəhşilikləri dalğasından başlayaraq erməni siyasi partiyaları öz mərkəzi fəaliyyətlərini Qafqaza keçirir. 1918-1920-ci illər arasında müxtəlif siyasi partiya və təşkilatlara daxil olaraq onların üzvü oduğunu göstərən ermənilər əslində erməni siyasi düşüncəsindən ayrılmırdılar. Onların siyasi düşüncəsində türk-müsəlman xalqlarının cismani məhvi üzərində bir erməni dövləti qurmaq cəhdi dayanırdı. Buna misal adı çəkilən dövrdə azərbaycanlıların soyqırımını həyata keçirən S.Şaumyanı göstərmək olar. 1918-ci ilin martında Rusiya bolşeviklərinin rəhbəri Vladimir Lenin bolşevik Stepan Şaumyanı Qafqaz Fövqəladə Komissarı təyin edərək Bakıya göndərmişdir. Bolşeviklər Bakıda hakimiyyəti ələ keçirmək adı altında erməni daşnaklarının silahlı qüvvələrinin gizli niyyətləri üçün lazımı şərait yaratmışlar. Martın 31-də Bakı şəhərində azərbaycanlıların kütləvi qırğını başlamışdır. S. Şaumyanın etirafına görə, dinc azərbaycanlıların qırğınında Bakı Soveitinin 6000 silahlı əsgəri, eyni zamanda "Daşnaksütyun" partiyasının 3-4 minlik silahlı dəstəsi iştirak etmişdir. Ancaq Şaumyanın əsas niyyətini və siyasi görüşlərinin səhnə arxası planını onun bu fikri açıq ifadə etmişdi: "Azərbaycan millətçilərinin Bakını Azərbaycan xanlığının paytaxtı etmək istəyinə" yol vermək olmazdı[20]. Erməni siyasi düşüncəsi əsrin əvvəllərində apardığı fəaliyyət nəticəsində Azərbaycanı tamamən məhv etməyə nail olmasa da bir sıra üstünlüklər qazandı. Bu da indiki dövrümüzdə daha böyük bir münaqişəyə potensial zəmin yaratmış oldu. Azərbaycanın Dağlıq Qarabağ bölgəsi buraya məlum köçürülmədən sonra ermənilərin ərazi iddialarının mərkəzinə çevrildi. 1923-ci ildə Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vialyətinin (DQMV) yaradılması Qarabağın tarixi inzibati və iqtisadi sərhədlərinin pozulmasına gətirib çıxarmışdır.

İkinci fəslin ikinci yarımfəsli **"Qars müqaviləsinin imzalanması və Naxçıvana erməni ekspansiyasının qarşısının alınması"** adlanır. Sovet Rusiyası nümayəndəsinin iştirakı ilə Türkiyə ilə üç Cənubi Qafqaz respublikası arasında 13 oktyabr 1921-ci ildə Qarsda müqavilə imzalanmışdır. Müqavilə 20 maddə və 3 əlavədən ibarət idi. Bu müqavilənin bir sıra müddəaları Moskva müqaviləsinin müvafiq maddələri ilə uyğun idi. Müqavilənin 5-ci maddəsi bilavasitə Naxçıvanın taleyi ilə bağlı idi. Burada yenə də Naxçıvanın Azərbaycanın tərkibində saxlanması və ona muxtariyyət verilməsi

---

[20]Шаумян С.Г. Избранные произведения ,Т.2. Москва, 1978, с.257

məsələsi təsbit edilmişdi. Moskva müqaviləsindən fərqli olaraq, Qars müqaviləsinin 5-ci maddəsində Naxçıvanın statusu məsələsində razılığa gələn tərəflər müəyyənləşdirilmişdi. Bunlar Türkiyə, Azərbaycan və Ermənistan hökumətləri olmuşdular. Qars müqaviləsi Ermənistan adlı bir dövlətin süni olaraq ərazi genişləndirməsinin qarşısını aldı, Azərbaycan Respublikasının isə ərazilərinin qorunmasında mühüm rol oynadı. Bu müqavilənin başlıca siyasi əhəmiyyəti Ermənistan Respublikasının Naxçıvana qarşı hər hansı ərazi iddialarının heç bir hüquqi əsasa malik olmaması və beynəlxalq hüquq normalarına zidd olmasındadır. Həm Moskva, həm də Qars müqavilələri bugünədək etibarsız elan edilməyib və öz hüquqi qüvvəsini saxlamaqdadır[21]. Bu müqavilənin əhəmiyyəti o qədərdir ki, bu gün ermənilər hətta Naxçıvanı əldə edə bilməməklərini bir sıra rus diplomatlarının dili belə xüsusi vurğulayırlar.

İkinci fəslin üçüncü yarımfəsli **"Faşizmlə əlaqələr erməni millətçiliyinin siyasi meylləri kontekstində"** adlanır.Burada göstərilir ki, İkinci Dünya Müharibəsi illərində erməni siyasi mühacirəti ideoloji baxımından faşizmə olduqca böyük rəğbət göstərmişdir. Erməni əsgərlərinin faşizm ideologiyası ilə daha da "mehribanlaşması" üçün mühacir erməni mətbuatı aktiv fəaliyyətə başlamışdı. 1935-ci ilin avqustunda mühacir erməni qəzetləri faşizmi dəstəkləyən mövzulara malik məqalələr dərc edirdi. Erməni mətbuatı Hitleri bir siyasi xadim, ideoloq və lider kimi tərifləməklə elə bil almanlarla yarışa girmişdi. O dövr erməni mətbuatının Hitler və faşistlərə yazdığı aşağıdakı mədhiyyələrin bir neçə nümunəsini veririk. Belə ki, 10 may 1935-ci ildə "Weekly Hairenik" qəzeti Rumıniyanın paytaxtı Buxarest şəhərinin vitsemerinin bəyanatını çap etmişdi: "Ermənilər yəhudilərin quluna çevrilməmək üçün Rumıniyaya kömək etmişdir"[22]. Ermənilərin faşistlərlə siyasi münasibətlərinin mövcudluğu sonradan ermənilərin siyasi mübarizə forma və vasitələrinə təsirsiz ötüşmədi. Alman faşistlərinin Belorusiya və Ukraynadakı insanlıq əleyhinə cinayətlərinin təkrarı kimi ermənilər də siyasi hədəflərinin reallaşdırılması zamanı kütləvi qırğınlardan istifadəyə yol verdilər.

Dissertasiyanın **üçüncü fəsli "Müasir Ermənistanda siyasi cərəyan və konsepsiyaların inkişafı" adlanır**. Qeyd etmək lazımdır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regional miqyaslı, qlobal xarakterli destruktiv problemdir. Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal etməsi nəticəsində yaranmış münaqişə ölkəmizin ərazi bütövlüyünə qarşı törədilmiş qəsdin və təcavüzkar siyasətin əyani nümunəsi olmaqla yanaşı, həm də regional və qlobal təhlükəsizlik sistemi üçün ciddi təhdiddir. Ümumilikdə,

---

[21]Haciyev İ. Qars müqaviləsi və Naxçıvanın taleyi.// 525-ci qazet. 5 oktyabr 2011
[22]www.karabakh-doc.azerall.info/ru/armyanstvo/arm71az-22.php#z2

münaqişə bölgənin inkişafına, uzunmüddətli sabitliyə mane olan dağıdıcı faktorlardan biri kimi çıxış edir. Ona görə də bu problemin həlli beynəlxalq təhlükəsizliyin diktə etdiyi zəruri amildir.

Ümumiyyətlə, Dağlıq Qarabağ münaqişəsinin xarakteristikası onu göstərir ki, bu problem ciddi tarixi köklərə malikdir. Daha da dəqiqləşdirsək, problemin tarixi kökləri XX əsrin 80-90-cı illərindən yox, məhz ermənilərin tarixin ayrı-ayrı dövrlərində xalqımıza qarşı silsilə şəkildə törətdiyi terror aktları, soyqırımı siyasətinə gedib çıxan dövrdən qoyulub. Məhz bu məqamı nəzərə alaraq qeyd edə bilərik ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, onun yaranma səbəbləri və həll yolları ilə bağlı əsaslı araşdırmaların aparılmasına xüsusi ehtiyac var.

Bu fəsilin birinci yarımfəsli **"SSRİ-nin dağılması prosesində erməni siyasi düşüncəsinin əsas istiqamətləri və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin başlanması"** adlanır. Məsələlər 1980-cı illərin SSRİ-nin dağılma prosesi başladığı tarixi situasiya kontekstində araşdırılır. Dağlıq Qarabağ münaqişəsinin meydana çıxması Ermənistanın imperialist dövlətlərin himayəsi ilə həyata keçirdiyi təcavüzkar siyasətin nəticəsi kimi dəyərləndirilir.

1980-cı illərdə SSRİ-nin dağılma prosesi başladı. Bu isə mərkəzi hakimiyyətdə güclü dayaqları olan erməniləri hərəkətə keçirdi. 1984-cü ildə Azərbaycan xalqının qəddar düşməni qatı millətçi Zori Balayanın "Ocaq" əsərinin dərc edilməsi, Ermənistanda azərbaycanlılara qarşı düşmənçilik hisslərinin açıq-aşkar qızışmasına səbəb oldu. Ermənilər siyasi dairələr tərəfindən müdafiə edilməsi məqsədi ilə siyasi iddialarını birbaşa siyasətlə məşğul olan kəslər vasitəsilə deyil, elmi sima yaratmış şəxslər tərəfindən dilə gətirilməyi məqsədəmüvafiq hesab etdilər və akademik Aqanbekyan belə şəxs rolunda çıxış etdi. O, 1987-ci ildə Fransanın "Humanite" jurnalına müsahibəsində Dağlıq Qarabağın ermənilərin "istəyinə" uyğun olaraq onun Ermənistana birləşməyinin məqbul heasb edirdi. Mətbuat sonralar Aqanbekyanın bu çıxışının Qorbaçovla razılaşdırılması haqqında yazırdı: "18 noyabr 1987-ci il. Mixail Qorbaçov akademik A.Aqanbekyanla Kremldə görüşərək, Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılaraq Ermənistanın tərkibinə daxil edilməsi barədə müzakirələr aparır. Qorbaçov bu məsələnin tezliklə həllinə söz verir". Əvvəllər gizli fəaliyyət göstərən erməni "Qarabağ Komitəsi", onun Dağlıq Qarabağ Muxtar Vilayətindəki separatçı-terrorçu təşkilatı "Krunk" (Durna) Aqambekyanın bu şovinist çıxışından və Mixail Qarbaçovun ermənipərəst mövqeyindən ruhlanaraq açıq fəaliyyətə keçdi, "Miatsum" (Birləşmə) hərəkatı formalaşdırıldı. 1988-ci il martın 25-də "Qarabağ komitəsi"nin fəaliyyəti Ermənistan SSR Konstitusiyasına və mövcud qanunvericiliyə zidd olduğuna

görə respublikanın Ali Soveti həmin komitəni qeyri-qanuni hesab edərək fəaliyyətinin dayandırılması haqqında qərar çıxardı. Hadisələr 1988-ci ilin fevralından başlayaraq daha da aqressivləşdi. Belə ki, həmin ay İrəvanda və Stepanakertdə (Xankəndi) separatçılar və erməni millətçilərinin mitinqlər dalğası başladı. Fevralın 20-də Dağlıq Qarabağ Muxtar Vilayəti Sovetinin ses-siyası vilayətin statusuna baxılması haqqında Azərbaycan SSR Ali Sovetinə müraciət etdi. Nəhayət, Moskva bir qədər də irəli gedərək Dağlıq Qarabağ Muxtar Vilayətini Azərbaycan SSR-in tərkibindən çıxarmaq istiqamətində daha bir addım atdı: SSRİ Ali Soveti Rəyasət heyəti 1989-cu il yanvarın 12-də "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarəçilik formasının tətbiqi haqqında" qərar qəbul etdi. Bunun hansı məqsədlə edildiyi aydın idi. Dağlıq Qarabağ Muxtar Vilayətində yaradılmış Xüsusi İdarə Komitəsi Muxtar Vilayətin Azərbaycandan alınıb Ermənistana verilməsini təmin etməli idi. Lakin Azərbaycan xalqının demokratik mübarizəsi nəticəsində noyabrın 28-də Xüsusi İdarə Komitəsi ləğv edildi. Ancaq bunun əvəzində yeni bir qurum - Təşkilat Komitəsi yaradıldı. Ermənistan SSR bu vəziyyətdən istifadə edərək dekabrın 1-də Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında antikonstitusion qərar qəbul etdi. Bu Ermənistan tərəfindən Azərbaycan SSR-in ərazi bütövlüyünə qarşı açıq hüquqi müdaxilə aktı olsa da, Moskva gözlənildiyi kimi, bu kobud müdaxilə faktına göz yumaraq susdu. SSRİ-nin dağılmasından sonra isə Ermənistan birbaşa Rusiyanın və eləcə də müəyyən dərəcədə İranın köməyi, Qərbin də göz yumması nəticəsində Dağlıq Qarabağ və ətraf rayonları işğal etdi, Xocalı faciəsi törədildi. 1992-ci ilin əvvəllərindən başlayaraq Dağlıq-Qarabağ münaqişəsi beynəlxalq təşkilatların müzakirə obyektinə çevrildi. Həmin ilin fevralında Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi dövlətləri münaqişənin həllinə dair müzakirələr apardılar. Mart ayında isə ATƏM-in Mnsk qrupu fəaliyyətə başladı. Bu qrupun tərkibini təşkil edən ABŞ, Rusiya və Fransanın ümumi siyasəti daha çox ermənilərin mövqelərini ifadə edirdi və bu gün də etməkdədir. 1993-cü ildə hakimiyyətə qayıdan Heydər Əliyev bu yanaşmaları dəyişmək üçün ölkə daxilində islahatların keçirilməsinə başladı. Daxili qüvvələri öz xarizmatik şəxsiyyəti ətrafında toplayaraq Heydər Əliyev Azərbacan xalqında baş qaldıran inamsızlıq və ruh düşkünlüyünü aradan qaldırmağa müvəffəq oldu. Onun xalqa müraciətindən sonra minlərlə könüllü ordu sıralarına qatılmağa başladı. Beyləqan istiqamətində aparılan hərbi əməliyyatlarda ermənilərin darmadağın edilməsi erməni məğlubedilməzliyi sindromu sındırılmış oldu. 1994-cü ilin mayında erməni tərəflə atəşkəsə imza atılması Azərbaycanın özünü toplaması baxımından çox vacib əhəmiyyət daşıyırdı. “Dağlıq Qarabağ” münaqişəsi ilə əlaqədar BMT-nin müvafiq sənədləri mövcuddur. Bu sənədlərdə münaqişənin həlli üçün qa-

nuni əsaslar müəyyən edilmişdir. Hazırda Azərbaycan Respublikasının prezidenti İlham Əliyev həmin prinsiplərin baza kimi qəbul olunmasının tərfdarı olduğunu dəfələrlə bəyan etmişdir. Amma onu söyləmək lazımdır ki, burada - yəni BMT-nin TŞ-nın 822, 853, 874, 884 saylı qətnamələrdə Azərbaycan ərazilərinin işğaldan azad olunması vurğulansa da Ermənistan təcavüzkar tərəf kimi konkret olaraq göstərilməmişdir. Prezident İlham Əliyev öz çıxışlarında Azərbaycanın Dağlıq Qarabağ siyasətində konseptual əsasları saxladığını dəfələrlə nümayiş etdirmişdir: "Biz konkret olaraq nə edirik? Cavab verməzdən əvvəl birinci dərəcəli vəzifəmizi xatırlatmaq istəyirəm. 1996-cı ilin 2 dekabrında Heydər Əliyev ATƏT-in Lissabon sammitində bəyan etmişdir: "Biz Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaranmasına imkan verməzik!"[23]

Üçüncü fəsilin ikinci yarımfəsl **"Erməni siyasi partiya və təşkilatları müasir siyasi mühitin reallıqları fonunda"** adlanır.Burada erməni diasporunun aparıcı təşkilatlarının müasir dövrdə fəaliyyəti və siyasi hakimiyyətlə sinxron işbirliyi analitik tədqiqat obyektinə çevrilir. Bununla yanaşı, Ermənistanın natamam və qeyri-monolit siyasi sisteminin əsaslarından bəhs edilir, siyasi partiyaların məhdud ideoloji prinsiplər əsasında fəaliyyət göstərdiyi qeyd edilir. Bu məsələlər kontekstində ifadə edilən analitik qənaətlər Ermənistan siyasi sisteminin xarakteristikası və reallıqlarının aşkar olunması, gələcəyə yönəlik statik və dinamik proqnozlar verilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Erməni diasporunun göstərmiş olduğu möhkəm həmrəylik milli ideologiyaları olan ənənəvi "Haydat" (ermənilərin iddiası) anlayışına söykənməkdədir. "Haydat"ın XIX əsrin sonu - XX əsrin əvvəllərində Ermənistanın xaricindəki şərtlərdə yaradılan, qəti, dəyişməz və əbədi milli vəzifələr olaraq mənimsənilən üç təməl məqsədi vardır ki, bunlar da, bütövlükdə, ekspansiya siyasətinə xidmət edir.

Qərb dövlətləri ilə yanaşı, erməni diasporunun güclü olduğu ölkələrdən biri də Rusiyadır. Rusiyada erməni diasporunun formalaşması tarixi bir dövrü əhatə edir. Sovet İttifaqı dövründə sənaye müəssisələrində işləmək üçün 1950-ci illərdən Rusiya şəhərlərinə ermənilərin axını başlamışdır. İkinci dalğa isə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin başlanması və məlum zəlzələ ilə bağlı olmuşdur[24]. Amerika Erməni Milli Komitəsi, Ameri-

---

[23] Abdullayev Ə. İ. Ermənistanın Azərbaycana qarşı təcavüzü tarixindən bəzi məqamlar. Bakı: İqtisad Universiteti , 2011, s.81

[24] Hatem C. "Rusya'da Ermeni Diasporası: Oluşumu ve Faaliyetleri", Ermeni Araştırmaları, Sayı:3, Eylül Ekim Kasım 2001, s. 133

kanın Erməni Assambleyası, Cənubi Amerika Erməni Milli Şurası, Amerikalılar Arsax Uğrunda, Kanada Erməni Milli Komitəsi, Fransa Erməni Təşkilatlarının Koordinasiya Şurası, Avstraliya Erməni Milli Komitəsi, Rumıniya Ermənilər İttifaqı və digərləri dünyanın aparıcı diaspor təşkilatlarıdır və onlar, demək olar ki, Ermənistanda bütün siyasi partiya və təşkilatlara təsir edirlər.

Bu yarımfəildə toxulmuş digər məsələ isə Ermənistan Respublikasında daxili siyasi proseslər fonunda hakimiyyətlə siyasi partiyalar və təşkilatlar arasında münasibətlərdən bəhs edir. Ermənistanda siyasi partiyaların qurulması 1988-1990-cı illərə təsadüf etsə də, siyasi partiyaların fəaliyyətini tənzim edən "İctimai siyasi təşkilatlar haqqında qanun" 26 fevral 1991-ci ildə qəbul edilmişdir. Qanunda siyasi partiyaların fəaliyyət müstəvisi və qaydaları müəyyən edilmişdir ki, bu qaydalara görə güc orqanlarında çalışanlar partiya üzvü ola bilməzlər. Siyasi partiyalar xaricdən və xarici ölkə tərəfindən idarə edilə, maddi yardım ala, dövlət orqanlarında təşkilatlana, maliyyə və iqtisadi qazanc gətirən müəssisələrə sahib ola bilməzlər. Siyasi partiyaların fəaliyyətinin dayandırılması və ya qadağan edilməsi Baş prokurorun vəsatəti əsasında Ali Məhkəmə tərəfindən həyata keçirilə bilər. Ermənistanda siyasi partiyaların formalaşması 1995-ci il Parlament seçkilərinə qədər davam etmiş və bu gün də davam etməkdədir. Hazırda Ermənistanda 70 artıq siyasi partiya fəaliyyət göstərməkdədir.Ermənistanda hazırda gündəmdə olan demokratik liberalizm prinsiplərinə əsaslanan Erməni Milli Konqresi, millətçi və mühavizəkar Erməni İnqilabçı Federasiyası -Daşnaksütyun, solçu Ermənistan Kommunist Partiyası, mühafizəkar Ermənistan Respublikaçılar Partiyası, mühavizəkar Çiçəklənən Ermənistan Partiyası, liberal Ermənistan Ramkavar Azatakan Partiyası, Erkrapah (Vətən Gözətçiləri) Könüllülər Birliyi, Sosial Demokratik Partiya – Hnçak, Xalqın Öz Müqəddəratını Təyin Birliyi, solçu Ermənistan Xalq Partiyası, mərkəz və mərkəz-sağ görüşə sahib Oriants Yerkir (Qanunlar Ölkəsi), mərkəz və mərkəz-sağ görüşə sahib İrs (Miras) partiyası, demokratik sosializm prinsiplərinə əsaslanan Ermənistan Demokratik partiyası, sosial demokrat partiya hesab olunan Birləşmiş Əmək Partiyası və başqa partiyaları sadalamaq olar. Bundan əlavə, Ermənistan siyasi həyatında Yeni Zaman (mühafizəkar), Ermənistan Mühafizəkar Partiyası (mühafizəkar), Ermənistan Liberal Demokratik Birliyi (liberal), Güclü Anavətən (millətçi) və digər kiçik partiayalar da mövcuddur. Ölkə daxilindəki siyasi təlatümlərə, törədilən terror aktlarına, Köçəryan-Sarqsyan klanının hakimiyyəti mənimsəməsinə işdə ətraflı toxunulmuşdur.

Beləliklə, müasir Ermənistanda siyasi situasiya qeyri-demokratik xüsusiyyətə malikdir. Qeyri-demokratiklik əsasən hakimiyyətin bir qrupun əlində cəmləşməsi – siyasi monopoliya ilə bağlıdır. Ermənistanda vəziyyəti gərginləşdirən digər bir amil isə "Qarabağ klanı"nın hakimiyyətinin yerli əhali tərəfindən loyal və ya müsbət qarşılanmamasıdır. Ölkə daxilində Rusiya qoşunlarının qalması da öz növbəsində təhlükəsizlik və sabitlik kontekstində daxili vəziyyətə ciddi təsir göstərir. Hakimiyyətdə təmsil olunmaq istəyən siyasətçilər mütləq bir şəkildə rusmeyillilik göstərməli olurlar. Bu da avro-inteqrasiya prosesinə, eləcə də alternativ siyasi təşəbbüslərə mane olur.

**"Ermənistanın xarici siyasətinin formalaşmasında mövcud reallıqlar və siyasi cərəyanların iştirakı"** üçüncü fəsilin üçüncü yarımfəslidir. Burada Ermənistanın xarici siyasəti müasir dünya siyasətinin reallıqları kontekstində analiz edilir, mürtəce və qeyri-praqmatik strateji kursun səmərəsizliyi faktlarla – ikitərəfli və çoxtərəfli münasibətlər çərçivəsində diqqətə çatdırılır.

İşğalçı siyasət yeridən Ermənistan beynəlxalq münasibətlər sistemində forpost kimi tanınır, müstəqil daxili və xarici siyasət kursu həyata keçirmir. Belə olan halda, öz xarici siyasət strategiyasında beynəlxalq hüquq normalarını əsas götürən milli dövlətlər Ermənistanı beynəlxalq münasibətlər sisteminin müstəqil subyekti kimi qəbul etmirlər. Digər tərəfdən, kimsəyə sirr deyil ki, Ermənistanın xarici siyasəti müəyyən hegemon güclərə güvənərək yalnız işğal, təcavüz və təxribat üzərindən fəaliyyət göstərməkdən ibarətdir. Məhz regional miqyasda baş verən hadisələr Ermənistanın nəinki müstəqil dövlət olmadığını, hətta hazırkı dönəmdə, sadəcə, hərbi baza, yaxud quberniya səciyyəsi daşıdığını bir daha təsdiqləyır. Bu reallıqlar kontekstində Ermənistanın xarici siyasət kursunun araşdırılması, müvafiq analitik qənaətlərin ifadə edilməsi fundamental əhəmiyyət kəsb edir.

Yarımfəsildə həmçinin Ermənistan dövlətinin terrorizmi dəstəkləməsi və hərbi gücə əsaslanan xarici siyasət doktrinası məsələsi araşdırılır. Ermənistan özünün siyasi kursunu müəyyən edərkən erməni terror təşkilatlarının liderlərinin reabilitasiyasını əsas hədəflərdən biri kimi müəyyənləşdirmişdir. Xüsusilə, Türkiyə diplomatlarına qarşı terror aktları, həmçinin digər cinayətlər törətmiş erməni terrorçularının azad edilməsi Ermənistanda dövlət səviyyəsində icra edilmişdir. Tanınmış beynəlxalq terrorçular Monte Melkonyan və Vazgen Sislyan hətta dövlət tərəfindən "Qarabağ müharibəsi qəhrəmanları" adına layiq görülmüşlər. 1991-1994-cü illər ərzində Azərbaycan ərazisində Ermənistan xüsusi xidmət orqanlarının təşkil etdiyi və kütləvi insan qırğınına yol açan terror aktları baş vermişdir.

Hazırda Ermənistanın xarici siyasət doktrinasında kifayət qədər aqressivlik müşahidə olunmaqdadır.

Bir sıra xarici araşdırmaçıların da bildirdiyi kimi, Ermənistan hərbi doktrinasının müdafiə xarakterli olması, əslində, populist xarakter daşımaqdadır. Maraqlısı odur ki, Ermənistan Respublikası politoloqları belə xarici siyasət məsələləri ilə bağlı fikirlərini ifadə edərkən aqressivliyi təkcə Azərbaycana qarşı yönəltmirlər. Erməni müəllifləri qeyd edirlər ki, Ermənistan Gürcüstan istiqamətində də daim hərbi hazırlıq vəziyyətində olmalıdır. Erməni müəlliflərinə görə, bu, türk və Azərbaycan qoşunlarının həmin istiqamətlərdən potensial zaman kəsiyində istifadə edə bilməməsi üçün, eləcə də lazımi məqamda Ermənistan Cavaxetiya ermənilərini "qoruya" bilməsi üçün vacibdir. Bu isə bir daha Ermənistanın Gürcüstana belə potensial müdaxiləni öz xarici siyasətində istisna etməməsinin göstəricisidir. Daha sonra qeyd edilir ki, Azərbaycanla bağlı Ermənistanın siyasəti ondan ibarət olmalıdır ki, istənilən anda Azərbaycana qarşı hərbi münaqişədə "təkbətək" prinsipi əsasında qalib gəlinsin. Burada, əlbəttə, Ermənistan siyasi tədqiqatçı və ideoloqları siyasi reallıqları gözardı edərək idealizmə qapılırlar. Çünki bəlli bir həqiqətdir ki, Ermənistanın hazırda və gələcəkdə Azərbaycanla birbaşa hərbi qarşıdurmaya girməsi elə onun özünün total məhvi ilə nəticələnə bilər.

Dissertasiyada Ermənistan-PKK əlaqələrinə və Cavaxetiya probleminə də xüsusi yer verilmişdir. Müasir erməni siyasi mühitində prioritet məsələlərdən biri də Cavaxetiya problemidir. Gürcüstanın Cavaxetiya bölgəsində yaşayan ermənilər bu ölkə daxilində ikinci bir "Qarabağ" yaratmaq istəyinin özlərinə məxsus bir mötədil formasını ortaya qoymuşlar. Ermənilərin bu ərazidə muxtariyyət yaratmağa cəhd etmələrinin əsas səbəblərindən biri də Cavaxetiyanın geosiyasi və geoiqtisadi cəhətdən əlverişli ərazidə yerləşməsidir. Belə ki, Gürcüstanın cənub-qərbində yerləşən Samtsxe-Cavaxeti rayonu Cənubi Qafqazda strateji əhəmiyyətli regionlarından biridir, şimal-qərbdə Acariya, cənubda Ermənistan (Bavra Gömrük məntəqəsi), cənub-qərbdə isə Türkiyə (Vale gömrük məntəqəsi) ilə həmsərhəddir.

Sonuncu yarımfəsildə "Ermənistan-Türkiyə münasibətlərinin müasir siyasi aspektləri" də araşdırılmışdır.Son dövr erməni xarici siyasətinin ən önəmli məsələlərindən biri Türkiyə ilə münasibətlərdir. Türkiyə 1991-ci ildə Ermənistanın müstəqilliyini digər postsovet ölkələri kimi tanımışdır. Ancaq iki ölkə arasında normal diplomatik əlaqələrin qurulması mümkün olmamışdır. Düşünürük ki, diplomatik əlaqələrin qurulmasına maneə olan üç əsas səbəb var. Bunlar Ermənistan rəhbərliyinin soyqırımı iddialarının beynəlxalq səviyyədə tanınması üçün göstərdiyi səylər, Ermənistan Müstəqillik Bəyannaməsində əksini tapan Türkiyə torpaqlarının bir hissəsinin Qərbi Ermənistan

kimi göstərilməsi və son olaraq Azərbaycan torpaqlarının Dağlıq Qarabağ və ona bitişik 7 rayonun hələ də işğal altında saxlanması problemidir. Ancaq Türkiyədə AKP-nin (Adalet və Kalkınma Partisi) hakimiyyətə gəlməsi ilə məsələ və yanaşmalardamüəyyən dəyişikliklər oldu. 10 oktyabr 2009-cu ildə Sürixdə Ermənistan və Türkiyə arasında protokollar imzalandı. İlk əvvəl Türkiyədə Ermənistanın konstruktivliyinə ümid edilsə də, sonrakı hadisələr bu yanaşmanı doğrultmadı. Protokollara və Türkiyə ilə yaxınlaşmaya qarşı sərt mövqe diaspor tərəfindən də nümayiş etdirildi. ABŞ-dakı erməni diasporu Ankara ilə İrəvan arasında imzalanan protokolların Türkiyə və Ermənistan parlamentləri tərəfindən təsdiqlənməsinə maneə törətmək məqsədilə beynəlxalq kampaniyaya başladı. ABŞ-da yaşayan ermənilərin əhəmiyyətli nəşrlərindən sayılan "Asbarez" qəzeti bir ay içində təsdiqlənməsi nəzərdə tutulan protokolların Ermənistanın milli mənafelərinə zidd olduğunu iddia etdi. "İrs" partiyasının katibi A. Martirosyan da partiyasının Türkiyə ilə imzalanan protokollar mövzusunda ölkədə bir referendumun keçirilməsini tələb edəcəyini açıqladı və parlamentin payız iclasları başlayan kimi imza toplamağa başladı. A. Martirosyan İrəvanda təşkil etdiyi mətbuat konfransında protokolların təsdiqlənməsinin Qarabağ probleminin həlli müddəti üçün "dağıdıcı" vasitə olacağı iddiasını irəli sürdü. Protokolların qarşı çıxılan ön şərtləri ehtiva etdiyini əsaslandıran Martirosyan 1915-ci il hadisələrini araşdıracaq bir alt komissiyanın qurulacağı təqdirdə bunu "soyqırımı"nın tanınması məsələsinə zərbə vuracaq bir hadisə kimi xarakterizə edərək bu səbəbdən partiyasının "referendum" tələb etdiyini açıqladı. Azərbaycan da protokollara qarşı sərt reksiya verdi. Lakin bütövlükdə, Sürix protokolları iflası uğradı. Bu isə onu göstərdi ki, Ermənistan öz qanunverici aktlarında ərazi iddialarından əl çəkmədikcə Türkiyə ilə normal münasibətlər qurmaq mümkün deyil. Həmçinin erməni siyasi cərəyanları, əsas etibarilə, bu protokolları dəstəkləmədilər. Azərbaycan tərəfi isə müxtəlif səviyyələrdə dəfələrlə bəyan etmişdi ki, Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalının davam etdiyi vəziyyətdə sərhədlərin Türkiyə tərəfindən açılması beynəlxalq ictimaiyyətin Ermənistanı beynəlxalq hüququn norma və prinsiplərinə əməl etməsinə məcbur etməkdir. Beləliklə, onların mövqeyinə görə, Azərbaycanın ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığına hörmət etmək, Dağlıq Qarabağ daxil olmaqla bütün işğal olunmuş ərazilərindən ordularının çıxarılmasına və məcburi köçkünlərin öz yurdlarına qayıtması üçün lazımi şəraitin yaradılması səylərinə ciddi zərbə vuracaqdır.

Dissertasiya işinin nəticə hissəsində əldə edilmiş nəticələrin nəzəri-praktik əhəmiyyəti ifadə edilmişdir. Dissertasiyanın əlavələr hissəsində Ermənistanda müasir siyasi partiyaların proqramları, ideoloji platformaları, xarici siyasətdə

prioritetləri, Dağlıq Qarabağ məsələsi və Ermənistan - Azərbaycan əlaqələri, soyqırımın tanınması və Ermənistan-Türkiyə əlaqələri, Ermənistan-Diaspora: inkişaf etmiş əlaqələr və səmərəli əməkdaşlıq məsələləri verilir.

**Tədqiqat işi ilə əlaqədar müəllif tərəfindən aşağıdakı elmi əsərlər çap olunmuşdur:**

**1.** Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində beynəlxalq praktikanın tətbiqinə dair //AMEA, Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, "Sosial-siyasi problemlər" elmi nəzəri jurnal,2009, № 3(23),s. 241-245
**2.** Ermənistandakı siyasi proseslərə müxtəlif yanaşmalar / BDU, "İnsan hüquqları sahəsində Azərbaycan Respublikasının beynəlxalq əməkdaşlıq siyasəti: formalaşması və yeni inkişaf tendensiyaları" mövzusunda 9 dekabr 2010 tarixdə keçirilmiş elmi-praktik konfransın materialları, Bakı, 2010, s. 32-33
**3.** Türkiye-Ermenistan ilişkilerinin yenilenmesine ermeni politikaçılarının tepkisi //"Turan Strateji Araşdırmalar Merkezi" Uluslararası bilimsel hakemli mevsimlik dergi,, Türkiye/Konya 2011, № 11, s. 75-82,
**4.** Erməni diasporunun müasir Ermənistanın dövlət siyasətinin formalaşmasına təsiri və təzyiqi // Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, "Strateji Təhlil" analitik jurnal, 2011, № s. 123-129
**5.** Migration catastrophe in Armenia as a consequence of the conflict // "The Caucasus & Globalization", Journal of Social, Political and Economic Studies, İnstitute of Strategic Studies of the Caucasus. Conflicts in the Caucasus: History, Present, and Prospects for Resolution Special Issue, CA&CC Press Sweden, 2012 s. Volume 6, Issue 4, p. 76-82
**6.** 1918-1920-ci illərdə erməni siyasi ideologiyası və insanlıq əleyhinə cinayətlər //"Tarix və onun problemləri" nəzəri, elmi, metodik jurnal, 2013, № 1, s. 99-103
**7.** "Mifologizm in the ideologies of the countries of the South Caucasus" // "Гілея: науковий вісник": Збірник наукових праць. Випуск 74, Киев, 2013, стр. 413-414
**8.** Heydər Əliyev və erməni təcavüzünə qarşı mütəşəkkil diplomatik mübarizə // AMEA, Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu "Heydər Əliyev Məktəbi" Ulu Öndər Heydər Əliyevin anadan olmasının 90-cı ildönümünə həsr edilmiş beynəlxalq elmi praktik konfransın materialları, Bakı, 06 may 2013, s. 183-193
**9.** Müasir erməni siyasi mühitinin bəzi köklü problemlərinə dair // "Tarix və onun problemləri" nəzəri, elmi, metodik jurnal, 2013,№ 4, s. 217-221
10.Армянская церковь и ее влияние на формирование национального самоопределения // "Вектор науки Тольяттинский государственный

университет. " ежекварталный научный журнал, 2013, № 4 (15), стр. 226-228,
11.Ermənistanda demoqrafik fəlakət siyasi proseslərin təzahürüdür / “Azərbaycan Respublikasında miqrasiya siyasəti və insan hüquqları” mövzusunda beynəlxalq konfransın tezislər toplusu. AMEA Insan Hüquqları və Elmi Tədqiqat İnstitutu, Bakı, 10 aprel 2014, s. 152-153
12.Армянская церковь и его влияние на формирование «армянской идентичности» //Вестник Казахский Национальный Университет имени Аль-Фараби, Алматы, 2014,№ 2(73), с.249-254
13. SSCB’nin dağılması sürecinde ermeni siyasi düşüncesinin temel yönleri ve Ermenistan-Azerbaycan Dağlık Karabağ sorunun başlaması // Dağlık Karabağ Üzerine Yazılar, İstanbul, Gündoğan yanları, Agustos 2014, Birinci baskı, s.73-86
14.Erməni kilsəsi və onun “erməni kimliyi”nin formalaşmasına təsiri // “Tarix və onun problemləri” nəzəri, elmi, metodik jurnal, 2014, № 1, s.244-249

**ЯГУБ ЯГУБОВ**

**современные политические течения и концепции в армении**

## Резюме

Диссертация посвящена достаточно актуальной проблеме. В диссертационной работе освещены различные аспекты исследуемой проблемы.

Первая глава диссертации называется **«Процесс формирования направлений политической мысли в Армении»**. В этой главе путем анализа изучаются различные этапы данного формирования.

Вторая глава называется**«Изменение центра армянской политической деятельности. Путь к созданию армянского государства»**. Здесь рассказывается о переходе политического центра армян на Южный Кавказ и о проделанной работе для создания армянского государства, о турко-мусульманской резне. Здесь также затронута тема создания НКАО. Исследуется Карский Договор, Нахчыванский вопрос, армянская идеология и ее связи с фашизмом.

Третья глава называется **«Развитие политических течений и концепций в современной Армении».** Здесь изучаются основные направления армянского политического мышления в процессе распада СССР, начало Армяно-Азербайджанского, Нагорно-карабахского конфликта, армянские политические партии и организации на фоне реалий современной политической среды, деятельностьведущих армянских диаспорских организаций в современном периоде и взаимосвязь с «родиной», отношения между властью и политическими партиями и организациями в Республике Армения на фоне внутренних политических процессов, существующие реалии в формировании внешней политики Армении и участие политических течений, поддержка терроризма армянским государством и ее основанная на военную силу внешняя политическая доктрина, политическая среда Армении и проблема Джавахетии, современные политические аспекты армяно-турецких отношений и другие вопросы.

**В Заключении** диссертации обобщены основные результаты исследования.

В разделе **Приложение** была дана классификация существующих политических партий в Армении, а также хронология совершенных армянами терактов на территории Азербайджана.

**Yagub Yagubov**

## modern political trends and concepts in armenia

### Summary

The thesis deals with rather actual problem. Various aspects of the investigated problem are highlighted in it.

The first chapter of the thesis entitled **"The formation process of political idea directions in Armenia".** In this chapter various stages of this formation is analyzed and studied.

The second chapter is entitled **"Changing the center of the Armenian political activity. The way leading to establishment of the Armenian state".** It describes transition of the political center of Armenians to the South Caucasus and the work undertaken to create an Armenian state, the Turkish-Muslim massacres. Establishment of Autonomous Province of Nagorno-Karabakh is also reflected there. Treaty of Kars, issue of Nakhchivan, Armenian ideology and its relationship to fascism is studied as well.

The third chapter is entitled **"The development of political concept trends in contemporary Armenia".** Here we study basic directions of the Armenian political thinking in the process of collapse of the USSR and the beginning of the Armenia-Azerbaijan Nagorno-Karabakh conflict, Armenian political parties and organizations in the background of the realities of modern political environment, activity of the leading Armenian Diaspora organizations in the modern period and relations with the "homeland", the relationship between the government and political parties and organizations in the Republic of Armenia in the background of internal political processes, existing realities and role of political trends in shaping foreign policy of Armenia, support for terrorism by Armenian state and its foreign political doctrine based on military force, political environment in Armenia and Javakhetia problem, modern political aspects of the Armenian-Turkish relations and other issues.

Common results of the research are summarized in the **conclusion**.

Classifications of existing political parties of Armenia, as well as chronology of terrorist attacks committed by Armenians in the Republic of Azerbaijan are included in **“Appendix**

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**НАУЧНО ИССЛЕДОВАТЕЛЬСКИЙ ИСТИТУТ ПО ПРАВАМ ЧЕЛОВЕКА**

---

*На правах рукописи*

**ЯГУБ АРИФ оглы ЯГУБОВ**

# СОВРЕМЕННЫЕ ПОЛИТИЧЕСКИЕ ТЕЧЕНИЯ И КОНЦЕПЦИИ В АРМЕНИИ

**Специальность: 5904.01 – «Политические системы и институты»**

## АВТОРЕФЕРАТ

**Диссертации на соискание ученой степени доктора философии по политическим наукам**

**Баку-2014**